Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Elmin parlaq ulduzu – Aida İmanquliyeva

**Aida İmanquliyeva 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Elmin parlaq ulduzu – Aida İmanquliyeva:** Aida İmanquliyeva 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. – 27 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

# Giriş

Görkəmli şərqşünas-alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida Nəsir qızı İmanquliyeva 1939-cu ildə Bakıda anadan olmuşdur. İlk dəfə Bakıdakı 132 saylı məktəbə 1947-ci ildə qədəm basmışdır. 1957-ci ildə məktəbi qızıl medalla bitirib, 1957-1961-ci illərdə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1962-ci ildə universitetdə təhsilini fərqlənmə diplomu ilə bitirmişdir. 1966-cı ildə Moskvada "Qələmlər birliyi və Mixail Nüaymənin yaradıcılığında rolu" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1970-ci ildə Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmış, 1972-ci ildə "Ərəb ədəbiyyatı" qrupunun rəhbəri təyin edilmişdir. 1975-ci ildə Moskvada "Qələmlər birliyi" və "Mixail Nüaymə" və Bakıda "Cübran Xəlil Cübran" kitabları nəşr olunmuşdur. 1976-cı ildə AMEA-nın "Ərəb filologiyası" şöbəsinin müdiri vəzifəsində işləmiş, 1981-ci ildə isə AYB-nın üzvlüyünə qəbul olunmuşdur. 1987-ci ildə Almaniyanın Qall şəhərində dünya şərqşünaslarının II simpoziumunda Cübran Xəlil Cübran, Mixail Nüaymə və Əmin Ər Rüeyhaninin həyat və yaradıcılığı haqqında məruzə ilə çıxış etmişdir. 1988-ci ildə Azərbaycan EA-sı Şərqşünaslıq İnstitutunun direktorunun elmi işlər üzrə müavini seçilmişdir. 1989-cu Tbilisi şəhərində Yeni ərəb ədəbiyyatı korifeyləri Cübran Xəlil Cübran, Mixail Nüaymə və Əmin ər-Reyhani yaradıcılığına dair doktorluq dissertasiyasını müdafiə etmişdir. 1991-ci ildə SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə professor elmi rütbəsi verilmişdir. 1991-1992-ci illərdə Azərbaycan EA-SI

Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində çalışmışdır. 1992-ci ilin 19 oktyabrında yaradıcılığının çiçəklənən vaxtında dünyasını dəyişmişdir.

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəbşünaslıq qrupunun ilk tələbələrindən biri olan İmanquliyeva aldığı təhsili ilə Azərbaycanda ərəb ədəbiyyatşünaslığının əsasını qoyaraq ilk qadın filologiya elmləri doktoru, professor adını almışdır. Əmək fəaliyyətinə 1966-1991-ci illərdə Azərbaycan Elmlər Akademiyası Yaxın və Orta Şərq xalqları İnstitutunda kiçik elmi işçi, sonra isə baş elmi işçi, ərəb filologiyası şöbəsinin müdiri, elmi işlər üzrə direktor müavini kimi başlamışdır. 1983-1987-ci illərdə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini, Şərq ədəbiyyatının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının Yazıçılar birliyinin üzvü olub. 1989-cu ildə Tbilisidə doktorluq dissertasiyanı müdafiə edərək, tezliklə bu ixtisas üzrə professor adını alan ədəbiyyatşünas 1991-ci ildən ömrünün sonuna qədər Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru olub.

**Aida İmanquliyevanın Azərbaycan Şərqşünaslıq elminin inkişafında rolu**

Azərbaycan elminin çoxəsrlik inkişafı tarixində XX əsrin xüsusi yeri var. Məhz bu dövrdən ölkəmizdə elmin ən müxtəlif sahələrinin çağdaş metodologiya əsasında inkişafı və çiçəklənməsi başlanır. Digər elm sahələri ilə yanaşı ictimai və humanitar elmlər də sürətlə inkişaf edir, ümumbəşər elminə dəyərli töhfələr verir. Bu sırada Azərbaycan şərqşünaslıq elmi xüsusi yer tutur. Bu sahədə ölkəmizdə də yüksək ixtisaslı kadrlar yetişir. Görkəmli şərqşünas-alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva həmin məktəbin inkişfında böyük xidmətləri olan nüfuzlu alimlərimizdən olmuşdur. Elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçən, öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində bir çox yüksək vəzifələrdə çalışmışdır.

3 monoqrafiyanın - Mixail Nüaymə və Qələmlər birliyi, M., 1975; Cübran Xəlil Cübran, B., 1975; Yeni ərəb ədəbiyyatı korifeyləri, B., 1991, və 70-dən artıq məqalənin müəllifi olan Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru olmuşdur. O, həmçinin Azərbaycan EA-sı Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən “Asiya və Afrika xarici ölkə ədəbiyyatları ” ixtisası üzrə müdafiə şurasına sədrlik etmişdir.

O, elmi-təşkilati fəaliyyətində yüksək ixtisaslı kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlamışdır. “Ərəb filologiyası” şöbəsinə rəhbərlik etdiyi müddət ərzində onun bilavasitə səyləri ilə 10-dan artıq namizədlik dissertasiyası müdafiə edilmişdir.

## Görkəmli şəxsiyyətlər Aida İmanquliyeva haqqında

Ölüm sevinməsin qoy, ömrünü vermir bada
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər!

**Bəkir Nəbiyev,**
*akademik*

Dünyasını çox vaxtsız dəyişən görkəmli alimin nəinki şərqşünaslıq, ümumən elm haqqında çox maraqlı və gərəkli fikirləri, planları var idi.

**Ağamusa Axundov,**
*akademik*

Aida xanım istedadlı alim, çağdaş ərəb ədəbiyyatının bilicisi, bu sahə üzrə Azərbaycanda ilk elmlər doktoru idi. “Mixail Nüaymə”, “Cübran Xəlil Cübran”, “Yeni ərəb ədəbiyyatı korifeyləri” kimi tədqiqat əsərləri öz elmi əhəmiyyətini və dəyərini qoruyub saxlamaqdadır.

**Fərəməz Maqsudov,**
*akademik*

Aida İmanquliyevanın qələmi yazıçı qələmi idi və məsələ yalnız onda deyildi ki, o Azərbaycan Yazıçılar İttifaqının üzvü idi, Mixail Nüaymə, Cübran Xəlil Cübran, Əmin ər Reyhani kimi məşhur ərəb yazıçılarının bədii əsərlərini Azərbaycan dilinə gözəl tərcümə etmişdir.

**Elçin,**
*Xalq yazıçısı*

Onun qədim Misir mənşəli adı – Aida sonradan C. Verdinin eyni adlı operasında təsvir edilən məhəbbətə sədaqətli, eşqini hər cür mənafelərdən yüksək tutan safürəkli, fədakar qadın obrazına çevrilmişdir.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi, akademik*

## Aida İmanquliyeva yaradıcılığının kitabxanalarda təbliği

Bir mədəniyyət müəssisəsi olaraq kitabxanada Aida İmanquliyevanın yaradıcılığını kitabxananın fondundakı ədəbiyyatlardan istifadə etməklə, elektron vəsaitlərdən, çap məhsullarından, video görüntülərdən istifadə etməklə təbliğ edə bilərik. Özünü tərcümə sahəsində də sınamış Aida İmanquliyeva bundan başqa Mixail Nüaymənin "Buz əriyəcək", "Qu-qu saatı", Mahmud Zahirin "Üsyan", Məhəmməd Dibin "Hasın Dermək", Sahib Camalın "Yusif", Süheyl İdrisin "Azadlıq" və Qənama Məcid Zeyyibin "Növbəyə dayanmaq" hekayələrini də dilimizə tərcümə etmişdir. Bu hekayələrin isə ucadan oxusunu təşkil edib oxucularla burdakı fikirləri müzakirə edə bilərik.
Bundan əlavə ədəbiyyatşünasın yubileyi ilə bağlı *"Gələcəyə yönələn nəzərlər", "Şərqşünaslığa sanballı töhfə", "Böyük alim, gözəl insan Aida İmanquliyeva, "Müdriklik və zəriflik zirvəsi", "Şərq ruhlu qadın"* başlıqlı sərgi təşkil edə bilərik. Sərgidə onun elmi irsinin dəyərli töhfələrindən olan kitablarını, tərcümə əsərlərini nümayiş edirik. Bu sərginin sxemini təqdim edirik:

- Böyük alim, gözəl insan – Aida İmanquliyeva;
- Azərbaycan Şərqşünaslıq elminə alimin töhfələri;
- Kitablar;
- Məqalələr.


AZƏRBAYCAN DÜNYASI
Aida
İmanquliyeva


AİDA İMANQULİYEVA
YARADICILIĞININ İZİ İLƏ
ŞƏRQ
RUHUNUN
QƏRB
HƏYATI
S. Xəlilov


AİDA İMANQULİYEVA
MƏQALƏLƏR və TƏRCÜMƏLƏR


SAMİNƏ
HİDAYƏTQIZI
YÜZ
TÜRK
QADINI


MODERN ARAP
EDEBİYATININ
USTA KALEMLERİ


Aida Imangulijeva
AZ ÚJARAB IRODALOM
NAGY ALAKJAI


Aida İMANQULİYEVA
AZƏRBAYCANIN
ELM
VƏ MƏDƏNİYYƏT
XADİMLƏRİ
biblioqrafiya


AİDA İMANQULİYEVA
MƏQALƏLƏR və TƏRCÜMƏLƏR
MATERİALLARI
EAST AND WEST
COMMON SPIRITUAL VALUES
SCIENTIFIC-CULTURAL LINKS

## Əmin Ər Reyhani Aida İmanquliyevanın tədqiqatlarında

Aida xanım yeni müasir ərəb ədəbiyyatının ən görkəmli, ən nüfuzlu tədqiqatçılarından biri sayılır. Onun ərəb məhcər ədəbiyyatına həsr edilmiş tədqiqatları Avropa şərqşünasları və ərəblərin özləri tərəfindən yüksək qiymətləndirilir.

Aida xanım həm də keçmiş SSR-i də, o cümlədən Azərbaycan yeni ərəb ədəbiyyatı kursunun yaradıcılarından biridir. Zəngin ərəb ədəbiyyatını araşdırıb sistemləşdirmək, ümumi tədqiqat məcrasına yönəltmək, onun səciyyəvi cəhətlərini müəyyənləşdirmək, görkəmli nümayəndələrinin həyat və yaradıcılığını öyrənmək dünya şərqşünaslığının qarşısında duran ən çətin problemlərdən biridir. Mübaliğəsiz deyə bilərik ki, Aida İmanquliyeva bu sahədə böyük əmək sərf etmiş və belə çətin kursun yaradıcılarından biri olmuşdur.

O, həm də gözəl insan idi. Yaxşı adamlar Tanrının öz seçimidir. Seçdiyi insanlardan isə yaradan heç nəyi əsirgəmir: gözəlliyi, istedadı, səxavəti... Ancaq bu da var ki, bütün üstün cəhətlər bir insanın varlığına nadir hallarda sığır, yəni həm yaxşı insan, həm yaxşı valideyn, həm yaxşı alim olmaq çox çətindir. Lakin az da olsa, belə adamlar dünən də olub, bu gün də var. İyriminci əsrin tanınmış ziyalılarından biri - nəcib insan, gözəl qadın, qayğıkeş ana, istedadlı alim, əsl vətəndaş Aida İmanquliyeva haqqında da bu fikirləri qətiyyətlə səsləndirə bilərik.

Haqqında söhbət açdığımız ilk müsəlman şərqşünas qadın Aida İmanquliyeva XIX-XX əsrlərdə Cənubi Amerikaya mühacirət etmiş Suriya və Livan ədiblərinin yaradıcılığını tədqiq etmiş, onlar haqqında monoqrafiya və məqalələrin müəllifi olmuşdur. O, Azərbaycan mühacirlərinin Vətən, torpaq sevgisini qəlbən duyduğundan ərəb mühacirət ədəbiyyatına böyük maraq göstərmişdir. Bu mühacir ədəbiyyatının

nümayəndələrindən biri olan Əmin ər-Reyhani yaradıcılığının tədqiqi Aida xanımın yaradıcılığında xüsusi rol oynamışdır. Əmin ər-Reyhani şair, esseist, publisist, nasir, tənqidçi, tarixçi və tərcüməçi kimi fəaliyyət göstərmiş, ərəb ədəbiyyatına yeni təmayüllər gətirmişdir. Əmin ər-Reyhaninin adı ərəb ədəbiyyatına ərəb ölkələrinin birliyi, azadlığı uğrunda mübarizə aparan ictimai xadim, ingilis dilində yazan ilk ərəb yazıçısı, mənsur şeir janrının ilk nümunələrinin yaradıcısı kimi daxil olmuşdur. Aida İmanquliyevaya görə Reyhani yaradıcılığında şair insan şəxsiyyətini, bir tərəfdən bəşəri ideyaların daşıyıcısı, digər tərəfdən isə cəmiyyətin ictimai problemlərinin səsi kimi göstərir. O, lirik personajın "mən" obrazında sanki bütün bəşəriyyətin amallarını ifadə etməyə, özünün mənəvi fəaliyyətində onun hüdudsuz, yaradıcı imkanlarını təcəssüm etdirməyə səy göstərir.

Aida İmanquliyevanın yaradıcılığını gənc nəslə tanıtmaq məqsədilə mədəniyyət müəssisələrində bir sıra tədbirlər keçirmək olar. Bu tədbirlərdən biri kimi onun yaradıcılığında əsas məqam olan Əmin ər-Reyhani tədiqatlarından istifadə etməklə bir sıra tədbirlər keçirə bilərik. Yubilyarın təhlilini verdiyi Reyhaninin şeirləri əsasında şeir müsabiqəsi, diskussiya təşkil edə bilərik. Oxucuların ifasında bu şeirləri iştirakçılara çatdırmaq daha maraqlı olar.

Aida İmanquliyevanın Mixail Nüaymədən tərcümə etdiyi "İnsan və quş" hekayəsini məktəblilər səhnələşdirə bilərlər.

## İnsan və quş

Bu qara xəbər tezliklə bütün kəndə yayıldı. Kiçikdən böyüyə kimi hamı bu haqda danışırdı. Mərhum ata-ananın yeganə oğlu idi. Qatil isə on üç yaşlı bir oğlan uşağı. Onun özündən başqa üç qardaşı, bir bacısı vardı. Valideynləri isə kəndin hörmətli və iqtidarlı adamlarından idi.

Qatili tanıyanlar, onun vəhşi hərəkətlərindən elə danışırdılar ki, sanki bu hadisənin baş verəcəyini qabaqcadan bilmişlər.
**Qonşulardan biri:** Əbu Asəf, yadındamı? Mən çoxdan deyirdim ki, onun əlindən axırda bir xata çıxacaq.
**O biri qonşu əlavə etdi:** Mən həmişə deyirdim ki, bu uşaq ata-anası üçün bir dərddir. Valideynləri isə yaxşı adamlardılar.
**Başqa bir qonşu pıçıldayır:** Hə, hə - deyə o biri qadın cavab verir. Onun əməllərindən yer-göy qan ağlayır.
Söhbətlərin axırı onunla qurtardı ki, hamı ölən uşağa heyfsiləndi, ata-anasına isə yazıqları gəldi.
**Aparıcı**: Haqqında danışılan qatil əcayib bir uşaq idi. Bəzən ona baxanda adama elə gəlirdi ki qarşında mələkə durub. Bəzən də o, alçaqboy, boynuyoğun şeytana dönür, qısa barmaqlı böyük əlləri ilə öz yaşıdının ayaqlarını asanlıqla yerdən üzürdü. Çoxları onunla yarışmaq istəmiş, lakin müvəffəqiyyətsizliyə uğramışdı. Başının quruluşu çox qəribə idi. Başı, ağzı aşağı çevrilmiş kuzəyə oxşayırdı. Saçları kirpinin iynələri kimi çox cod, üzünün dərisi qaraydı. Balaca qulaqları varıydı. Gözləri çox xırda, yumru və zil qara idi.

Valideynləri və müəllimləri onun əlindən zara gəlmişdilər. Evdə istədiyini edir, bacı qardaşını incidirdi. Məktəbdə müəllimlərini də incidib təngə gətirmişdi. Müəllimləri, valideyinləri cana gəlib ağaca əl atanda sinəsini uf demədən qabağa verib “vur! Vur!” deyirdi. Nə atasına, nə anasına tabe olurdu. Ancaq ona ürəyi istəyən iş tapşıranda canla-başla öhdəsindən gəlirdi. Heyvanların və quşların həyatını öyrənməyə böyük həvəs göstərirdi. Ağacdan və kağızdan elə gözəl əşyalar düzəldirdi ki, adam heyran qalırdı. Bir dəfə ağacdan bir quş düzəltmişdi ki, lap canlı quşa oxşayırdı.
**Aparıcı:** Bir dəfə o gölün kənarında əlində ip tutmuş bir oğlan görür. Ondan nə etmək istədiyini soruşur. Oğlan cavab verir ki, pişiyi suda boğmaq istəyir. Bunu eşitdikdə o, boynuna ip

bağlamış pişiyin ipini oğlanın əlindən alır. İpini açıb oğlanın boynuna bağlayır. Sonra onu suya itələyib deyir: Hə necədir? Suda boğulmaq yaxşıdırmı? Xoşuna gəlirmi?

Yaxşı ki bu dəfə o gölün yanından bir adam keçirmiş. Həmin adam oğlanı xilas edir.

Bir dəfədə o, yolda bir dostuna rast gəlir. Dostu əlində quş yuvası aparırmış. Onun içərisində yumurtadan təzəcə çıxmış beş ətcə bala varmış. Dostunu məcbur edir ki, geri qayıtsın və yuvanı balalarla birlikdə aldığı yerə qoysun. Oğlan yuvanı budağa qoyub düşdükdən sonra o, ağacdan bir çubuq qoparıb, dəcəli yaxşıca kötəkləyir və deyir: "İndi get anana de ki, yuvada balaları narahat edən və onların analarını incidən axmaqların axırı belə olur".

Bir dəfə o, isitmə xəstəliyinə tutulur. Vəziyyəti elə ağırlaşır ki, valideynləri narahat olub həkim çağırır. Nəhayət, onun möhkəm bədəni xəstəliyə üstün gəlir və tədricən sağalmağa başlayır. Halı yaxşılaşır, həkim ona ət yeməyə icazə verir. O güman edir ki, oğlu onun bu nəvazişindən sevinəcək və uzun müddət ac qalmış xəstə uşaq əti məmnuniyyətlə yeyəcək. Lakin süfrə açılanda o, dəli kimi yerindən sıçramış, boşqabı tullayaraq qışqırmışdı.

– Kim sizə icazə verib ki, onu öldürəsiniz.

Atası güclə onu yatağına uzandırmışdı. O, hönkür-hönkür ağlayıb, bütün bədəni tir-tir əsirmiş. Anası çox qorxmuş, heç bir söz deyə bilməmişdi, yerindəcə donub qalmışdı. Bu hadisədən sonra oğlanın vəziyyəti yenidən pisləşir. O, anasından xahiş edir ki, çarpayısını pəncərənin qabağına çəksin. Buradan o, təbiəti seyr etmək istəyirdi. Çarpayısından quşları seyr edir və özünü xoşbəxt hiss edirdi. Quşların arasında əbülhənnə quşu da var idi. Oğlan onu əli ilə çağırırdı.

– Gəl, mənim yanıma, gəl, məndən qorxma.

− Bir neçə gündən sonra onlar dostlaşdılar. Quş otağın pəncərəsinə, oradan da onun yatağına, əlinə qonurdu. Oğlan quşu yedizdirir və getdikcə özünü yaxşı hiss edirdi.

Bir dəfə o, çarpayıda oturub uzaqdan quşu seyr edirdi. Birdən güllə səsi eşitdi. Əbdülhənna quşu yerə düşdü. Oğlan o saat yatağından qalxdı, bayıra qaçıb quşa güllə atanı tapdı, sonra yaxasından tutub yerə yıxdı. Yerdən bir daş götürüb onun başına vurmağa başladı. Oğlan qışqırırdı. "Götür onu, götür onu. Sən onu öldürmək və yemək üçün dünyaya gəlməmisən!"

Oğlanı evə huşunu itirmiş halda gətirdilər. Qızdırması qalxmış, əhvalı yenədə pisləşmişdi. Günlər keçsə də, o, gözünü açmır, həyatla ölüm arasında kəskin çarpışma gedirdi. Məhkəmə onun sağalmasını gözləyir, o, isə hələdə huşsuz halda uzanıb sayıqlayırdı.

− Götür onu! Götür onu! Sən onu öldürmək və yemək üçün dünyaya gəlməmisən.

Aida İmanquliyevanın tərcümə qoyub getdiyi bu hekayədə bir balacanın necə mərhəmətli, xeyirxah sadiq bir ürəyə sahib olduğu əks edilir. Hətta onun özü xəstə olarkən quşun qayğısını çəkməsi uşaqların tərbiyəsində bir örnəkdir. Məktəbdə nadinc olsa da o yalan danışmazdı. Həmişə haqqı deyərdi. Bizlərə qoyub getdiyi tərcümələri ilə zərif qadın, qayğıkeş ana cəmiyyətdə belə insanların çox olmağına çalışırdı.

Bu xasiyyətləri uşaqlara hələ kçik yaşlarından aşılamaq lazımdır.

Livan yazıçısı Mixail Nüaymənin bu hekayəsi əsasında da əsərdən bir parçanın səhnələşdirilmiş formasını hazırlaya bilərik. Hekayə ilə tanış olan orta yaş qrup oxucuları arasında "*Heyvanlarla necə davranaq*", "*Mən də təbiətin dostuyam*" və b. başlıqlı suallar əsasında fikirlərini öyrənə bilərik.

1. Oxuduğunuz hekayənin müəllifi kimdir?
   ☺ Mixail Nuaymə

2. Bu hekayənin tərcüməçisi kimdir?
   ☺ Aida İmanquliyeva
3. Hekayədə söhbət nədən gedir?
4. Müəllimlərinin, valideyinlərinin bədxasiyyət oğlan kimi tanıdığı oğlanın heyvanlara belə qayğı göstərməsini necə qiymətləndirirsiz?
5. Hərtərəfli insan olmaq üçün dərslərini yaxşı oxumaq lazımdır yoxsa gözəl qəlbli olmaq lazımdır?
6. Oğlan nə üçün durub güllə atan oğlanı daşladı?
   ☺_______________________________
7. Onun quşlara qarşı münasibəti necə idi?
   - Götür onu! Götür onu! Sən onu öldürmək və yemək üçün dünyaya gəlməmisən!
8. Əlində quş yuvası aparan dostunu nə üçün kötəkləyir?
   ☺ Quşların balalarını yuvasından ayırdığı üçün
9. Günahsız bir quşu öldürməyə siz necə baxırsız?
10. O niyə xəstə olanda anasının bişirdiyi eti yemədi?
11. O nə vaxt özünü xoşbəxt sayırdı?
   ☺ quşları pəncərədən seyr edərkən




**Kitab müzakirəsi.** Öz əsərlərində yaşayanlar ölmürlər. *Kristian Bovio*
Aida İmanquliyevanın elmi nailiyyətlərini oxuculara təqdim etmək üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirəcəyimiz kitab müzakirəsi də xüsusi əhəmiyyətlidir. Böyük yaşlı oxucularla, ali məktəb tələbələri ilə Aida İmanquliyevanın "Yeni ərəb ədəbiyyatı korifeyləri" kitabının müzakirəsini təşkil edə bilərik.

Böyük istedadın, yüksək fəhmin, gərgin tədiqatçı əməyinin bəhrəsi olan, elmi dəyəri heç zaman solmayacaq bu əsər XX

əsrin əvvəllərində Şərq və Qərb ədəbiyyatlarının qarşılıqlı əlaqəsi problemlərinə həsr olunmuşdur. Aida İmanquliyeva bu kitabda öz elmi yaradıcılığını həsr etdiyi ingilis romantiklərini, bir sıra yeni dövr ərəb ədəbiyyatı nümayəndələrini tədqiq edərək ümumiləşdirmişdir.

Bu gün kitabın həsr olunduğu problemlərdən bir əsr keçsə də, bu kitab Aida İmanquliyevanın uzaqgörənliyini və bəsirətini göstərir. Kitab öz elmi nəzəri çəkisinə, informasiya yükünə, mövzu genişliyinə, fikir dərinliyinə, problemin qoyuluşuna, tətbiq olunan mövzuya sistemli yanaşma tərzinə, üslub, ifadə xüsusiyyətlərinə və başqa meyarlara görə çox sanballı bir elmi əsərdir.

Kitabın birinci fəslində mühacirətdə ABŞ-da ərəb ədəbiyyatının yaranması və xarici ədəbiyyatın "Suriya-Amerika məktəbi" yazıçılarına təsiri məsələləri ümumi və əhatəli şəkildə açılır.

Eyni zamanda şərqşünaslıq və ədəbiyyatşünaslıq elminin nailiyyətlərini özündə əks etdirən bu kitab məzmununa görə alimin ictimai-siyasi baxışlarını özündə əks etdirən bir kitabdır. Onun fikrlərindən aydın olur ki, birlik, inteqrasiya və qloballaşma eyni zamanda və eyni səviyyədə olmalıdır. Aida xanım təsdiq edirdi, ki, hər bir xalqın öz xarakterinə görə milli ədəbiyyatı ümumbəşəri nailiyyətlərlə qırılmaz şəkildə bağlıdır. Milli olanın ümumbəşəri olanla birliyindən kənarda dünyanın heç bir ədəbiyyatı inkişaf edə bilməzdi, mədəniyyətin yüksələn xətlə hərəkəti olmazdı. Oxuculara onun elmi fəaliyyəti sayəsində Azərbaycan ictimai şüurunu dövrün mənəvi ideoloji buxovlarından azad edib ümumbəşəri ideyalar, dəyərlər səviyyəsinə yüksəltməyə çalışırdı.

XIX əsrdə  bu sözləri deyən Dostoyevskinin ardınca bir çox XX əsr mütəfəkkirləri də bu fikirdə olublar. Məhz Aida İmanquliyevanın yaradıcılığında tədqiq etdiyi amerika filosofu,

şair Emersonda gözəlliyi kainatın yaradıcısı hesab etmişdir. Ərəb əlaqələrini tədqiq edən ədəbiyyatşünas Cübranın da, Əmir ər Reyhaninin də, Mixail Nüaymənin də dünyanı xilas edəcək gözəllik anlayışlarının, Emersonun görüşlərinə yaxın olduğunu göstərir. Kitabxanada bu dünya şöhrətli alimləri tədqiq edən Aida İmanquliyevaya həsr edilmiş **"Dünyanı gözəllik xilas edəcək" adlı tədbir hazırlaya bilərik**.

Səhnə qurulur. Zalda ədəbiyyatşünas, alim haqqında qurulmuş sərgi qoyulur, plakat asılır. Haqqında söylənmiş sitatlar, öz fikirləri divara vurulur. İştirakçılara bukletlər paylanır. Haqqında kitabxanaçılar tərəfindən hazırlanmış slayd nümayiş edilir. Aparıcı tədbiri açır.

*(Səhnə qurulur; oxucular gəlir.)*

**Aparıcı:** Bilirsinzmi Aida İmanquliyeva kimdir? Görkəmli şərqşünas, alim, professor, qayğıkeş ana. Həm də bir sıra dünya şöhrətli alimlər kimi gözəlliyin dünyanı xilas edəcəyini düşünən bir tədqiqatçı.

Hansıki XX Əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi bu şərqşünas alim, professor elm sahəsində ki, bir çox zirvələri qətiyyətlə fəth edərək Azərbaycan Akademiyası Şərqşünaslıq İnstitutunda kiçik elmi işçidən bu elm ocağının direktoru vəzifəsinə qədər yüksəlmişdir.

Onun əsərlərində izahını tapan bir çox məsələlər Azərbaycan ədəbiyyatşünaslığı üçün yeni bir baxış idi. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ədəbiyyatın missiyası və poeziyanın mahiyyəti;
2. Ədəbi-bədii cərəyanlar - realizm və sensualizm;
3. Ədəbi-bədii kamparatvistika;
4. Dünya ədəbiyyatı tarixində mühüm bir dövrün işıqlandırılması.

**Aparıcı:** Mixail Nüaymə və Cübran Xəlil Cübran haqqında monoqrafiyalar yazıb çap etdirmiş alimin tədqiqatları

Azərbaycanda Şərq ədəbiyyatının öyrənilməsində yeni hadisə idi. Bu sahədə o, üç monoqrafiya və yetmişdən çox əsərin müəllifi olmuşdur.

Kitabxanada yubilyar haqqında keçirilməsi nəzərdə tutulan tədbirlərdən olan anım gecəsi də məqsədəuyğundur. Anım gecəsində Aida İmanquliyevanın tədqiqatçısı olduğu gözəllik aşiqləri olan üç böyük ərəbin – Cübran Xəlil Cübran, Mixail Nüaymə və Əmin ər Reyhaninin uca ruhlarına Rəşad Uluselin yazdığı esse-alleqoriyadan bir parçanı məktəblilərlə səhnələşdirə bilərik.

*Səhnəyə əlində çıraq oxucu daxil olur, həzin musiqi səslənir.*

**I oxucu:** Əgər sən çıraqsansa, ortada olmasan da, işıqlandıracaqsan!

**IIoxucu:** Əgər sən işıq deyilsənsə, qaranlığın da sənin qədər dünyaya gərək olduğunu hardan biləsən?!

**III oxucu:** Əgər sən kölgəsənsə, kölgələr dalınca sürünəcəksən!

**I oxucu:** Əgər sən məbədsənsə, bəs ətrafında səndən hündürə qalxan bu divarlar nədir?!

**IV oxucu:** Əgər sən hasarsansa, gərək doğmalar və dostlar arasından sökülə-sökülə yadlar və düşmənlər arasında yox olasan!

**V oxucu:** Əgər sən tufansansa, yıxacağın ağacların yanındakı pöhrələri qoru!

**VI oxucu:** Əgər sən ağac deyilsənsə, çiçəyin kökünü tanımayacaq!

**VII oxucu:** Əgər sən çiçəksənsə, meyvəndən yayılan ətrin ruha, ruhdan sənətə ordansa milyonların duyğularına süzüləcək!

**VIII oxucu:** Əgər sən söz deyilsənsə, dilin üstündə yox altında bitəcəksən.

**IX oxucu:** Əgər sən duasansa itaət dəllallarının hördüyü bütün sədləri - ehkamları sındırıb, İnsan-Tanrı vəhdətinin "laməkan" məqamından sədalanmalısan.
**X oxucu:** Əgər sən ana südü deyilsənsə, körpə dodağının ləzzətini necə duyacaqsan?!
**I oxucu:** Əgər sən ərənliyində fatehliyini, fatehliyində tül zərifliyini qorumasan, itirdiyin hər qarış torpağınla cırtdanlaşacaqsan.
**II oxucu**: Əgər sən çörəyin ətrini içində boğan təndir olsan, heç bir qadının əlinin hərarətini özündə saxlaya bilməyəcəksən.
**III oxucu:** Əgər sən çörək deyilsənsə - istər sənə and içsinlər, istər tapdalasınlar, olan-qalan heyinin də qazmaq olmadığını sübut etməyi itirəcəksən.
**IV oxucu:** Əgər sən gücsənsə, zəiflər üzərində hökmranlığını yox, meydan sulayan zoru yenib taxtından endirməyi qüdrətin say!
**V oxucu:** Əgər sən xəncərsənsə, bir başqasını kəsəndə bir üzün də özünü kəssin.
**VI oxucu:** Əgər sən odlu silahsansa, tətiyin Həqiqətə gərək and içsin ki, güllən də cana məlhəm olmaq üçün sancılsın!
**VII oxucu:** Əgər sən kəndirsənsə, onda özünü asan yeniyetmənin əlində, hamilə gəlinin biləyində sarmaşıq tək çiçəklən!
**VIII oxucu:** Əgər sən palçıqsansa, gərək tezcə quruyub toza dönəsən, leysanları içib torpağa çevriləsən!
**IX oxucu:** Əgər sən torpaq deyilsənsə,hər bir toxumla yenidən doğulduğunu və hər bir toxumun səndən özünü doğduğunu bilməyəcəksən.
**X oxucu:** Əgər sən budaq deyilsənsə, səndən qopan hər yarpağı necə yadında saxlaya, onun taleyini yeni yarpaq nəsillərinə necə danışa bilərsən?!

**I oxucu**: Əgər sən dünyanın odunda sönsən tüstüsündə yanacaqsan!
**II oxucu:** Əgər sən Günəşdən doğsan, Günəşdə səndən doğacaq!
**III oxucu:** Əgər sən anasansa bütün evlərdə sənin övladlarının əgər sən övladsansa bütün evlərdə sənin anan olduğunu bilməlisən!
**IV oxucu:** Əgər sən başçısansa milyonların sırasında sonuncu dayananı da özünə tay, özünlə çiyin-çiyinə görməli, milyonları birləşdirən əl olmalısan!
**V oxucu:** Əgər sən vətəndaş deyilsənsə, nə qədər kənara çəkilsən, nə qədər boynundan atsan da, - ölkənə bütün çatışmamazlıq, yaramazlıq və fəlakətləri axıdan xəndəksən!
**VI oxucu:** Əgər sən cəngəllik ilanısansa səni tapdalayanların özünün ilan olub-olmadığını müdrik səhra ilanlarından öyrən!
**VII oxucu:** Əgər sən ocaq deyilsənsə, külün közünü qorumayacaq!
**VIII oxucu:** Əgər sənin Tənhalığına dünyalar sığmırsa, həmişə Təksən!
**IX oxucu:** Əgər sən su deyilsənsə, haradan biləsən ki, səni yaşıl vadilərdəki çəmənlik və pöhrəliklərdən çox, yağmursuz çöllərin bitkiləri, ilğım-səhraların bir-birinə sıxılıb təngiyən kolları gözləyir?!
**X oxucu:** Əgər sən çaysansa, gərək Fərat olub məcnun divanəliyi ilə dünyanın susuz Kərbəlalarını axtarasan!
**I oxucu:** Əgər sən sinəsənsə, bir ürəyin yarısının səndə, yarısının sevgilində olmasından həzz al!
**II oxucu:** Əgər sən ürək deyilsənsə, qan dolu kasadan nə fərqin var?!
**III oxucu:** Əgər sən göz deyilsənsə, səninlə hamı özündən başqa hər nəsnəni və hər kəsi görəcək!

**IV oxucu:** Əgər sən əl deyilsənsə, demək səni hər an əlləri qandallayan zəncirə çevirə bilərlər!
**V oxucu:** Əgər sən zəncir deyilsənsə, səni göyərçinlər belə dimdikləri ilə açıb azadlığa yetirlər!
**VI oxucu:** Əgər sənin ayaqların tikanlıqlarda qanaq-qanaq olsa da, Qanun və ədaləti tapdamamaq və tapdalandırmamaq əzmi göstərsə, dizlərin də onların qarşısında qatlanmaqdan iftixar duyacaq!
**VII oxucu:** Əgər sən əlində bayraq dalğalandırırsansa,onda ürəyində də, əməllərində də onu yaradanların ideallarına və yaşadanların ümidlərinə sədaqətli olmalısan!
**VIII oxucu:** Əgər sən idealsansa, yabancı şitliklərdə yetişdirib mənəviyyat torpağına köçürülməməli, özün onun münbit qatında rişələnməlisən!
**IX oxucu:** Əgər sən müqəddəs kitabsansa, nədən sənin hər səhifəndən hər kəs özünə bir məfkurə yapıb və onun əlinə həm məşəl, həm gürz verib?!
**X oxucu:** Əgər sən məşəlsənsə, qarşındakı dolanbac yollara işıq tutursan, yoxsa işıqlı elləri yandırıb zülmətə qərq edirsən?!
**I oxucu:** Əgər sən dinsənsə, əzəmətin tapınaqlarının ehramlaşmağında, zərlənib – altunlaşmağında deyil, könülləri ucaltmağında, nurlandırmağındadır!
**II oxucu:** Əgər sən dağ deyilsənsə, eniş yoxuşlarındakı çalın-çarpaz cığırların birləşib zirvənə gedən yolu tapmayacaq, azıb-itəcək, qırçınlarındakı hər yüksəkliyin özünü zirvə sayacaq.
**III oxucu**: Əgər sən dənizsənsə balıqların kimi gəmilərini də dənizçilərini də niyə qorumayasan?!
**IV oxucu:** Əgər buludla küləyin dostluğundan sənin xəbərin yoxsa, hara əsdiyini bilməyəcəksən!
**V oxucu:** Əgər sən xəfif yellərdən belə uçuqları titrəyən, yağışlardan çox göz yaşlarından ovulan xarabalıqsansa, üstünə göyərmiş otlardan yeni bir həyat başlasın deyə oyan!

**VI oxucu:** Əgər sən beşik deyilsənsə, laylalarını əmən bütün doğmalar bir-birinə yadelli olacaq, yağı kəsiləcək, həyat nəğmələrini ölüm marşına çevirəcəklər!
**VII oxucu:** Əgər sən qəbiristanlıqsansa səndən dəfn edilmiş ölülərin və dirilərin məzarları ilə danışdığın dilin sirrini özündən başqa anlayanların da olduğuna inan ki, sən ölülərinlə-son, dirilərinlə - başlanğıcsan!
**VIII oxucu:** Əgər sən arısansa, ilahi nizamla qurduğun şanlarından necə birindəkinə bal,o birindəkinə zəhərtək baxa bilərsən?!
**IX oxucu:** Əgər sən quş deyilsənsə, yuvanda həmişə yad yumurtalardan balalar çıxacaq, qanadlarını palaztək sürüyəcək, qu səfini düz ovçunun tüfəngi üstündən keçirəcəksən!
**X oxucu:** Əgər sən yuvasan sa, ağacların koğuşu, sıx budaqların gizlini, məbədlərin damı özü səni axtaracaq!
**I oxucu:** Əgər sən nəsilsənsə, qoy sərvətlərin zənginlik qaynağıtək təkcə nəvə-nəticələrinin deyil, min qat uzaqlarında halalı olsun!
**II oxucu:** Əgər sən bəşəriyyətsənsə, niyə artır, fəqət böyümürsən?!
**III oxucu:** Əgər sən tənqid etdiklərinin özün sonuncususansa, hətta yoxsansa, demək, yüksək status iddialarında birinciliyə haqqın çatmayacaq!
**IV oxucu:** Əgər sən ətrafını mədhiyyəçilərin və alqışçılarınla çevrələyibsənsə, haçansa mütləq onların sıxlaşıb–daralmasında daralıb-boğulacaqsan!
**V oxucu:** Əgər sən mən deyilsənsə, mən sən deyiləmsə,-biz heç kimik!
**VI oxucu:** Əgər sən nəfəssənsə, kəsiləndə heç olmasa, insanın içində bir udum qal-həyatın son payı kimi!
**VII oxucu:** Əgər sən insansa, uzaqgörənliyindən müdrikliyinə, müdrikliyindən mütəfəkərliyinə, mütəfəkərliyindən

peyğəmbərliyinə, peyğəmbərliyindən avatarlığına yüksəldiyin qatlardan bircə dəfə də tək-tək yox, bütün Bəşəriyyət tək qalx!
**VIII oxucu:** Əgər sən tanrısansa, ətəyini yox, əlini mənə ver!
**Aparıcı:** Aida xanım az ömür yaşasa da xoşbəxt insandır. Ona görə xoşbəxtdir ki, o, böyük alimdir, əsərləri dünyanın bir çox ölkələrində nəşr olunur, oxunur və yüksək qiymətləndirilir, adı nüfuzlu elmi məclislərdə, simpozium və konfranslarda hörmətlə çəkilir.
**Aparıcı:** Ona görə xoşbəxtdir ki, özündən sonra ölkənin birinci xanımı, bu gün hər bir azərbaycanlı ailəsinin sevimlisi olan Mehriban xanım Əliyeva kimi, tanınmış alimimiz, nadir istedadlı ziyalı qadınımız Nərgiz Paşayeva kimi iki gözəl övlad, qoyub getmişdir.
**Aparıcı:** Elmi - təşkilati fəaliyyətində yüksək ixtisaslı ərəbşünas kadrların hazırlanmasını diqqət mərkəzində saxlayan alimin xatirəsini əbədiləşdirmək üçün BDU- şərqşünaslıq fakültəsində əlaçı tələbələrdən birinə onun adına təqaüd verilmişdir.

## Ədəbiyyat siyahısı

### Əsərləri

### *Dövri mətbuatda*

Bahar ətirli duyğular // Azərbaycan. - 2014. - 4 mart. - **№ 47**. - S. 5.

Novruz şərq ölkələrində // Ədəbiyyat qəzeti. - 2014. - 7 mart. - № 9. - S. 1;3.

### *Haqqında*

### *Kitablarda*

**Aida Nəsir qızı** İmanquliyeva = Аида Насир гызы Имангулиева = Aida Nasir Imankuliyeva : Biblioqrafiya. - Bakı : Elm, 2010. - 248 s. : il. - (Azərbaycanın elm və mədəniyyət xadimləri). - Azərbaycan, ingilis və rus dilində.

**Əmircanova Q. A.** Gözəllik və kamillik ilahəsi. - Bakı : Avrora, 2008. - 128 s.

**İlk azərbaycanlı** qadın-ərəbşünas elmlər doktoru : Aida İmanquliyeva // Hidayətqızı S. Yüz türk qadını. Sarı sim. I kitab. – Bakı : Apotroff, 2012. – S.20-23.

### *Dövri mətbuatda*

**Abdullayeva S.** Aida İmanquliyeva : Azərbaycan Şərqşünaslıq elminin əsilzadəlik və mənəvi harmoniya ünvanı // İki sahil. - 2018. - 10 oktyabr. - № 191. - S. 15.

**Axundova N.** Azərbaycan elminin fəxri : [Görkəmli şərqşünas-alim, professor Aida İmanquliyeva haqqında] // Azərbaycan. - 2018. - 19 sentyabr. - № 209. - S. 10.

**Aida İmanquliyeva dünyanın** böyük alim qadınlarına xas olan bütün keyfiyyətləri təcəssüm etdirirdi // İki sahil. - 2015. - 10 oktyabr. - № 185. - S. 13.

**Amalını, məqsədini, məramını** xeyirxahlıq üstə kökləmiş nəcib insan, əsl elm fədaisi, kamil şəxsiyyət - Aida İmanquliyeva // Xalq qəzeti. - 2014. - 10 oktyabr. - № 219. - S. 5.

**Baxşəliyeva G.** Hər əsəri yeni bir tapıntı idi : Elm xadimləri // Azərbaycan. - 2018. - 10 oktyabr. - № 227. - S. 7.

**Behbudqızı S.** İntellekt və gözəllik nümunəsi : Aida xanım İmanquliyevanın ömür yolu ilə tanış olan hər kəs onu məhz bu kəlmələrlə yad edir // Mədəniyyət.az. - 2015. - № 10. - S. 66-69.

**Bünyadov T.** Dünyaya bir də gəlməz... : şərqşünas, ədəbiyyatşünas, tərcüməçi Aida İmanquliyeva haqqında // Ədəbiyyat qəzeti. - 2014. - 10 oktyabr. - № 39. - S. 4.

**Cəfəroğlu Ə.** Aida İmanquliyeva - sağlığında ölməzlik qazanmış böyük insan // Mədəni Həyat. - 2014. - № 11. - S. 14-15. ; Savalan. - 2014. - 14-16 oktyabr. - № 77. - S. 3.

**Elcanlı S.** Ağ işığın möcüzəsi : şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi Aida İmanquliyeva haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 19 sentyabr. - № 51. - S. 16-17.

**"Əl Əhram" qəzeti:** Aida İmanquliyeva ömrünü ərəb və şərq tədqiqatlarına həsr etmiş Azərbaycan alimidir // İki sahil. - 2018. - 10 oktyabr. - № 191. - S. 12.

**Əzizəliyeva B.** Aida İmanquliyavanın Azərbaycan elminin inkişafında rolu // Azərbaycan. - 2014. - 19 sentyabr. - № 204. - S. 9.

**Fərəcova Z.** Bitməyən ömür : [şərqşünas alim Aida İmanquliyeva haqqında] // Azərbaycan. - 2017. - 19 sentyabr. - № 203. - S. 6.

**Həmidov İ.** Yaşayan irsin Aida İmanquliyeva ünvanı : oktyabrın 10-u Aida imanquliyevanın doğum günü idi // Ədəbiyyat qəzeti. - 2018. - 13 oktyabr. - № 38. - S. 2.

**Hüseynov R.** Bir şeir misrası kimi : [Aida İmanquliyeva haqqında] // Xalq qəzeti. - 2018. - 10 oktyabr. - № 227. - S. 7.

**Hüseynova H.** Azərbaycan qadınının siması // Respublika. - 2018. - 9 oktyabr. - № 225. - S. 4.

**Hüseynova H.** Fədakar alim və nəcib insan : görkəmli alim, professor Aida İmanquliyevanın əziz xatirəsinə həsr olunur // Respublika. - 2014. - 9 oktybar. - № 218. - S. 8.

**İordaniya mətbuatında görkəmli** şərqşünas alim Aida İmanquliyeva haqqında məqalə dərc olunub // Səs. - 2015. - 18 aprel. - № 70. - S. 3.

**İsayeva Ş.** Azərbaycanın maarifçi qadınları : Aida İmanquliyevanın pedaqoji fəaliyyətində humanist yanaşmalar // Respublika. - 2018. - 3 fevral. - № 25. - S. 5.

**İşıqlı ömür...** : Aida İmanquliyeva - 75 // Yeni Azərbaycan. - 2014. - 15 oktyabr. - № 186. - S. 4.

**Kamillik zirvəsinə ucaldılmış** qadın : Aida İmanquliyevanın həyat və yaradıcılığı hər bir azərbaycanlı üçün mənəviyyat, kamillik və müdriklik örnəyidir // Kaspi. - 2015. - 10 - 12 oktyabr. - № 165. - S. 6.

**Quliyev E.** Şərqşünaslıq elmimizin korifeyi : Aida İmanquliyeva - 80 // Kaspi. - 2019. - 8 may. - № 83. - S. 11.

**Məhərrəmli T.** Şərq müdrikliyi ilə Qərb həssaslığını birləşdirən alim : Aida İmanquliyeva görkəmli elm xadimi və yüksək insani keyfiyyətləri özündə birləşdirən insan kimi xatırlanır // Kaspi. - 2015. - 22 sentyabr. - № 154. - S. 9.

**Məhərrəmov A.** Böyük şərqşünas alim, bacarıqlı elm təşkilatçısı : Aida İmanquliyeva haqqında // Azərbaycan. - 2015. - 10 oktyabr. - № 220. - S. 3.

**Məhərrəmova T.** Nəciblik nümunəsi : Aida İmanquliyeva bütün gözəl xüsusiyyətləri özündə təcəssüm etdirirdi // Kaspi. - 2017. - 10 oktyabr. - № 167. - S. 6. ; 2018. - 10 oktyabr. - № 169. - S. 7.

**Mirələmov H.** Ana abidəsi : Aida İmanquliya - 75 // Azərbaycan. - 2014. - 10 oktyabr. - № 219. - S. 3.

**Nəzakət.** Aida İmanquliyeva - 75 : elmi-ictimai fəaliyyəti ilə sevilən alim // Səs. - 2014. - 11 oktyabr. - № 187. - S. 5.

**Ömərov V.** Aida İmanquliyevanın elmi nailiyyətləri // Səs. - 2019. - 6 fevral. - № 24. - S. 15.

**Professor Nərgiz Paşayeva:** Aida İmanquliyeva nadir və parlaq insan idi // Azərbaycan. - 2014. - 12 oktyabr. - № 221. - S. 2. ; Səs. - 2014. - 14 oktyabr. - № 188. - S. 3.

**Sadıqov A.** Mənəvi ideaların zirvəsində : [şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi Aida İmanquliyeva haqqında] // Azərbaycan. - 2016. - 9 oktyabr. - № 222. - S. 4.

**Sağlığında ölməzlik qazanmış** şəxsiyyət : görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın anadan olmasından 75 il ötür // Kaspi. - 2014. - 11 oktyabr. - № 166. - S. 19.

**Vəliyev D.** Aida İmanquliyeva - Azərbaycan şərqşünaslığının parlaq siması // Xalq qəzeti. - 2015. - 10 oktyabr. - № 220. - S. 3.

**Zümrüd.** Azərbaycan şərqşünaslığının parlaq siması // Səs. - 2017. - 19 sentyabr. - № 168. - S. 4.

**Zümrüd.** Ziyası ilə işıq saçan görkəmli alim : Bu gün şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın doğum günüdür // Səs. - 2018. - 10 oktyabr. - № 191. - S. 6.

# Elmin parlaq ulduzu – Aida İmanquliyeva

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 28
Çapa imzalanmışdır: 14.05.2019
Tirajı:100
Pulsuz